

AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİNİN ORQANI

# POLİS

www.pq.mia.gov.az

polisazerbaycan

17 fevral 2022-ci il
Cümə axşamı

1933-cü ildən çıxır
№ 7 (3570)

# PREZİDENT HƏRBİ ŞƏHƏRCİYİN AÇILIŞINDA OLUB





Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyev və birinci xanım Mehriban Əliyeva fevralın 13-də Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının Ağcabədi rayonunda yeni inşa olunan hərbi şəhərciyinin açılışında iştirak ediblər.

Daxili işlər naziri, general-polkovnik Vilayət Eyvazov Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevə raport verib.

Hərbi şəhərcikdə görülən işlər barədə məlumat verən nazir Vilayət Eyvazov bildirib ki, ərazisi 6,2 hektar olan hərbi şəhərciyin inşasına 2019-cu ilin sentyabrında başlanılıb. Tikinti işləri ötən ilin noyabrında uğurla başa çatdırılıb.

Qeyd olunub ki, hərbi şəhərcikdə şəxsi heyətin xidmət, məişət, sıra və döyüş hazırlığı səviyyəsinin daha da yüksəldilməsi üçün qərargah, 3 əsgər kazarması, zabitlər üçün beşmərtəbəli və ikimərtəbəli 84 mənzilli 2 yataqxana, 2 yeməkxana, tibb, qarovul, texniki nəzarət-buraxılış məntəqələri, digər köməkçi binalar inşa olunub, idman şəhərciyi yaradılıb. Yeni binalar zəruri mühəndis-kommunikasiya, o cümlədən elektrik və su təchizatı, havalandırma, yanğın-siqnalizasiya, rabitə-informasiya və videomüşahidə sistemləri ilə təchiz edilib.

*Ardı 2-ci səhifədə.*





## YARADILAN ŞƏRAİT MƏSULİYYƏT HİSSİNİ ARTIRIR



Daxili İşlər Nazirliyinin Baş Əməliyyat və Statistik İnformasiya, Daxili Təhqiqatlar, Səfərbərlik İşləri və Mülki Müdafiə idarələrinin yerləşəcəyi inzibati bina yenidənqurma və əsaslı təmirdən sonra istifadəyə verilib.

Paytaxtın Binəqədi rayonu ərazisində yerləşən üçmərtəbəli inzibati bina xidməti otaqlardan, Növbətçi Hissə, silah-sursat saxlama yerindən ibarət olmaqla mərkəzləşdirilmiş kondisioner-ventilyasiya, yanğın siqnalizasiyası, videomüşahidə və rabitə kommunikasiya sistemləri ilə təmin edilib, təyinata uyğun olaraq zəruri mebel və inventarlar quraşdırılıb. Binanın ərazisində abadlıq-yaşıllaşdırma və işıqlandırma işləri icra edilib.



## TƏBİƏTƏ QƏNİM KƏSİLMİŞDİLƏR...

### *Polis Astara və Lerik rayonlarında əməliyyat keçirdi*

Astara və Lerik rayonları ərazisində qiymətli ağac növlərinin qanunsuz olaraq kütləvi şəkildə kəsilməsi barədə Daxili İşlər Nazirliyi Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsinə əməliyyat məlumatları daxil olub. Məlumatlar Baş İdarədə nəzarətə götürülməklə hərtərəfli araşdırılıb və qeyd edilən ərazilərdə palıd və fıstıq ağaclarının kəsildiyi müəyyən edilib. Ekologiya və Təbii Sərvətlər Nazirliyi Meşələrin İnkişafı Xidmətinin mütəxəssislərinin iştirakı ilə keçirilən əməliyyat-axtarış tədbirləri nəticəsində ağacların Astara rayon sakinləri Sərdar Gənciyev və Sərhad Eynullayevin başçılıq etdiyi mütəşəkkil dəstə üzvləri tərəfindən kəsildiyi məlum olub. Keçirilən əməliyyat nəticəsində adları çəkilən şəxslər və onlara ağacların kəsilməsində yaxından köməklik edən dəstənin digər üzvləri Fərman Fərziyev, Aiəddin Novruzov, Nurlan Cövziyev, qohumu Surxay Cövziyev, Rahid Gənciyev və Nail Zəbiyevin saxlanılması təmin edilib. Dəstə üzvlərinin qanunsuz əməlləri, onların ağacları kəsməsi və satması təkzibedilməz faktlarla sübuta yetirilib. Məlum olub ki, saxlanılan şəxslər ağacları kəsərək dəstə üzvü Fərman Fərziyevin həyətində emal edəndən sonra satışını həyata keçiriblər. Əməliyyat nəticəsində qanunsuz olaraq ağac emalı sexlərinə satılan çoxlu sayda ağacın və onların oduncaqlarının yeri də müəyyən edilib. Ekspertlərin verdiyi rəyə əsasən yaş halda kəsilən ağaclardan bəzilərinin yaşının 100-150 il olduğu məlum olub.

Faktla bağlı Cinayət Məcəlləsinin müvafiq maddələri ilə cinayət işi başlanılıb. Qeyd edilən faktların tam, hərtərəfli araşdırılması, eləcə də ağacların kəsilməsində iştirak edən dəstənin digər üzvlərinin də saxlanılması istiqamətində zəruri əməliyyat-istintaq tədbirləri davam etdirilir.

# PREZİDENT HƏRBİ ŞƏHƏRCİYİN AÇILIŞINDA OLUB

*Əvvəli 1-ci səhifədə.*

Binalar zəruri mebel və inventarla təmin edilib, ehtiyat elektrik təchizatı mənbəyi olaraq generator və stabilizator qurğuları quraşdırılıb. Şəhərciyin daxilində və ətrafında abadlıq və yaşıllaşdırma işləri aparılıb.

Prezident, Ali Baş Komandan hərbi şəhərcikdə qərargah, əsgər yataqxanaları, tibb məntəqəsi və yeməkxana ilə tanış olub.

Diqqətə çatdırılıb ki, şəhərcikdə xidmətin yüksək səviyyədə təşkili üçün bütün şərait yaradılıb.

Sonra Prezident, Ali Baş Komandan İlham Əliyev Daxili Qoşunların xüsusi təyinatlıları üçün nəzərdə tutulan silah-sursata və hərbi texnikaya baxıb.

Qeyd edək ki, Daxili Qoşunların şəxsi heyəti ictimai asayişin qorunmasında və təhlükəsizliyin təmin olunmasında, cinayətkarlığa qarşı mübarizədə, xüsusi əməliyyatların keçirilməsində fəal iştirak edir. Daxili Qoşunların xüsusi təyinatlıları Birinci Qarabağ müharibəsində olduğu kimi, Vətən müharibəsində də Azərbaycanın haqq işinin müdafiəsində fəal iştirak ediblər. 44 günlük Vətən müharibəsində Daxili Qoşunların şəxsi heyətindən 66 nəfər şəhid olub, 346 hərbi qulluqçu isə yaralanıb, 4 nəfər Vətən Müharibəsi Qəhrəmanı adına layiq görülüb.



Daxili Qoşunlar Daxili İşlər Nazirliyinin ayrılmaz tərkib hissələrindən biri kimi cəmiyyətin və dövlətin mənafeyini, vətəndaşların konstitusion hüquqlarını cinayətkar qəsdlərdən qorumağa, mühüm və strateji əhəmiyyətli dövlət obyektlərinin mühafizəsini həyata keçirməyə, ictimai asayişin və təhlükəsizliyin təmin olunmasını, habelə qanunvericiliklə müəyyən edilmiş digər vəzifələri bundan sonra da layiqincə yerinə yetirməyə qadirdir və hazırdır.







# ONLAR POLİS OLMAQ İSTƏYİRLƏR...

## *Polis peşəsini seçənlərin seçilməsindən müşahidələrimiz*







Kütləvi informasiya vasitələrində, o cümlədən Daxili İşlər Nazirliyinin rəsmi saytında və sosial şəbəkələrindəki səhifələrində əvvəlcədən verilmiş elana uyğun olaraq Polis Akademiyasına 2022/2023-cü tədris ili üçün "hüquqşünaslıq" ixtisası üzrə əyani təhsilə kursantların qəbulu ilə bağlı müsabiqə başlayıb. Paytaxtda və yerlərdə bu istiqamətdə həyata keçirilən fəaliyyətə dair suallarımıza cavab tapmaq üçün bir neçə ərazi polis orqanı ilə əlaqə saxladıq, prosesin gedişatını izləmək məqsədilə isə Abşeron Rayon Polis İdarəsində olduq. "Polis"i maraqlandıran suallara cavab olaraq **İdarə rəisinin şəxsi heyətlə iş üzrə köməkçisi, polis mayoru Yaşar Məmmədov** bildirdi ki, təhsilə namizədlərin seçimi və xüsusi yoxlanılması DİN-in müvafiq əmrinin tələbləri əsasında, tam, hərtərəfli, eyni zamanda şəffaflıq və aşkarlıq şəraitində keçirilir.

Qeyd olundu ki, ayrı-ayrılıqda hər bir gəncin nitqi, zahiri görkəmi, fiziki hazırlığı, boy həddi yoxlanılır, ən əsası, ümumi bilik səviyyəsinə diqqət yetirilir. Uyğun gələn iddiaçıların ərizə, anket və tərcümeyi-halları alınır, sənədləri yerli yoxlamalar üçün aidiyyəti üzrə göndərilir. Qəbul şərtlərinə cavab verən gənclərin sənədləri Baş Kadrlar İdarəsində toplanılır və onlar Xüsusi Həkim Komissiyası tərəfindən tibbi müayinədən keçirilirlər. Müsbət rəy alanların namizədliyi qəbul olunur. Polis mayoru Y.Məmmədov onu da əlavə etdi ki, hər bir müraciətə həssaslıqla baxılır, "Daxili işlər orqanlarında xidmətkeçmə haqqında Əsasnamə"nin tələblərinə uyğun gəlməyənlərə isə sənədlərini digər ali məktəblərə vermələri tövsiyə edilir.

Yoxlanış prosesində həmsöhbətimiz olan gənclər sıralarımıza qoşulmaq arzusunda olduqlarını, polisin adını daima uca tutmaq üçün səylə çalışacaqlarını, həmçinin qəbul zamanı onlara göstərilən diqqət və qayğıya görə təşəkkürlərini ifadə etdilər.

*Teymur Əlizadə,*
*polis mayoru*

# DƏLƏDUZLAR İFŞA OLUNUB

Suraxanı Rayon Polis İdarəsinin İstintaq Şöbəsi əməkdaşları tərəfindən müxtəlif vaxtlarda vətəndaşların etibarından sui-istifadə edərək onlara maddi ziyan vuran şəxslər saxlanılıblar.

Bakı şəhər sakini Famil Quliyev Binə qəsəbəsində 2 sot torpaq sahəsini Qarabağ qazisi Nazim Kazımova satacağına yalandan vəd verərək ondan 5 min 670 manat alıb. Buna baxmayaraq F.Quliyev vədinə əməl etməyib.

Zərərçəkmişin şikayəti əsasında işi araşdıran **İŞ-nin müstəntiqi, polis kapitanı Vüqar Hadinin** tutarlı dəlil-sübutları qarşısında aciz qalan təqsirkar törətdiyi əməldən peşman olduğunu etiraf edib.

Paytaxt sakini Firuz Babayev də nəfsinin qurbanı olub. O, Raqif Abıyevi tanışı Mətləb Abıyevin üzərində olan axtarış işinin götürülməsi adı ilə aldadaraq 15 min manatını mənimsəyib. Aldadıldığını bilən R.Abıyev polisə üz tutub.

Məsələnin araşdıran **İŞ-nin müstəntiqi, polis mayoru Nizami Məhərrəmov** R.Abıyevə dəymiş maddi ziyanın ödətdirilməsini təmin edib.

**Baş müstəntiq, polis kapitanı Fərid Alıyevin** icraatında olan dələduzluq faktları da vətəndaşlar – Habil Nəsirovun, Rza Quliyevin və Səbuhi İsmayılovun məmnun qalmaları ilə yekunlaşıb.

*Ardı 3-cü səhifədə.*

# UZAQDAKI YAXIN ADAM

## *İngiltərədəki dostumuz qonağımız oldu*

***Onu bir neçə il əvvəl feysbuk, yutub və instaqram platformaları üzərindən Azərbaycanla bağlı etdiyi paylaşımlarla tanımışıq. Böyük Britaniya vətəndaşının xalqımıza, o cümlədən Azərbaycan Polisinə hüsni-rəğbəti ölkələrimiz arasındakı böyük məsafəni ona dost deyə biləcəyimiz qədər qısaldıb, yaxınlaşdırıb. Obrazlı desək, o, bizim üçün uzaqdakı yaxın adama çevrilib.***

Freddi Fitçes internet üzərindən izlədiyi Azərbaycanı daha ətraflı tanımaq üçün bir neçə dəfə ölkəmizə səfər edib. Üç il əvvəl isə Bakıya gələndə Daxili İşlər Nazirliyinə məktub ünvanlayaraq Azərbaycan Polisi ilə tanış olmaq istəyini açıqlamış və müsbət cavab almışdı.



Bugünlərdə növbəti dəfə ölkəmizə gələn Freddi "Polis"in redaksiyasına da baş çəkdi. Onu çaya qonaq edib, köhnə dost kimi qarşıladıq. Dilimizdə danışmağı bacarsa da fikrini tam ifadə edə bilməsi üçün DİN-in Beynəlxalq Əməkdaşlıq İdarəsinin əməkdaşı, polis mayoru Vaqif Əzizov tərcüməçilik işini öhdəsinə götürdü. Beləcə, səmimi ortamda dostyana söhbətimiz alındı.

Qonağımız deyir ki, Bakıya gələndə yenə polislər onu əsl azərbaycanlı istiqanlılığı ilə qarşılayıblar. Harada olubsa, ona kömək edib, bələdçisi olublar, xoş rəftar, səmimi ünsiyyət və isti münasibət görüb. Elə əvvəlki səfərləri ərəfəsində azərbaycanlı asayiş keşikçilərinin isti münasibəti onda vətənində polis olmaq arzusu oyadıb. Hazırda Böyük Britaniyanın London şəhər metropoliten polisinin əməkdaşıdır.



O, baxmayaraq ki, Britaniya vətəndaşıdır ancaq Azərbaycan həqiqətlərini bilən və onu təbliğ edən məsləkdaşımızdır. Bir maraqlı faktı diqqətimizə çatdırdı. Dedi ki, 44 günlük Vətən müharibəsini yaxından izləyib. Şuşanın azad edilməsinə azərbaycanlılar qədər sevinib. Vətən müharibəsində Azərbaycanın haqlı tərəf, Qarabağın da azərbaycanlılara məxsus olduğunu ingilis həmkarlarımıza yeri düşdükcə izah edirmiş. Bir sözlə, "Qarabağ Azərbaycandır!" şüarı onun dilində əzbər olub o günlərdə.



Hazırkı pandemiya şəraitində həm Britaniya, həm də Azərbaycan polisinin fəaliyyəti, eləcə də kriminoloji vəziyyətlə bağlı müşahidələrini dilə gətirən Freddi sərt karantin tədbirlərinin iki müxtəlif cəmiyyətdə fərqli təpkiyə səbəb olduğunu söylədi. Onun sözlərinə görə, Azərbaycandan fərqli olaraq, pandemiya dövründə Britaniyada narkotik və zorakılıq cinayətlərinin sayı çoxalıb, bu da onunla izah olunur ki, polislərin çoxu xəstəliklə bağlı evdə olublar və ona görə cinayətlərin sayı artıb. Bununla yanaşı, karantin tədbirlərinə etiraz edənlərlə polis arasında toqquşmalar yaşanıb.

Müşahidələrinə əsaslanaraq qeyd etdi ki, Azərbaycan Polisi xidməti vəzifələrini yerinə yetirməkdən başqa, həm də insani tərəfdən özünü çox yaxşı göstərə bilib. Yardım aksiyaları həyata keçirib, aztəminatlı ailələrə maddi-sosial dəstək olmaqla dünyada nadir rastlanan davranış sərgiləyib.

Yeri gəlmişkən, Freddi Bakıdaykən DİN-in Polis Akademiyası və Suraxanı RPİ rəhbərliyi ilə görüşərək polisin maddi-texniki bazası, tədris prosesi və digər imkanları ilə də tanış olub. O, bütün bunlara görə Daxili İşlər Nazirliyinin rəhbərliyinə öz dərin təşəkkürünü bildirdi, Azərbaycan Polisinə olan ehtiramının daha da artdığını söylədi.

*"Polis"*

# ÖMRÜN ŞƏHİDLİK ZİRVƏSİNDƏ





Vətən müharibəsində şəhidlik zirvəsinə ucalanlardan biri də baş çavuş Hüseynov Məhəmməd Alik oğludur. Əslən Cəbrayıl rayonunun Harovlu kəndindən olan hərbi qulluqçumuz 1993-cü il oktyabrın 28-də Beyləqan rayonunun Bahar qəsəbəsində doğulub. Məhəmməd dörd bacının bir qardaşı idi. O, orta təhsilini Bahar qəsəbəsindəki Sosialist Əməyi Qəhrəmanı Sərdar İmrəliyevin adını daşıyan tam orta məktəbdə alıb.

Müddətli həqiqi hərbi xidmətini 2011-ci ilin oktyabr ayından 2013-cü ilin aprel ayınadək Daxili Qoşunların Bakının Xətai rayonunda yerləşən "N" saylı hərbi hissəsinin xüsusi təyinatlı dəstəsində keçib. Müddətli həqiqi hərbi xidmətini başa vurduqdan sonra qoşunların Biləcəri qəsəbəsindəki "N" saylı hərbi hissəsinin "Şahin" şərti adını daşıyan xüsusi təyinatlı dəstəsində müddətdən artıq həqiqi hərbi xidmətə keçirilib. Xüsusi təyinatlı dəstənin əməliyyat qrupunda atıcı-qumbaraatan vəzifəsində xidmət edib.

2019-cu ilin sentyabr ayından 2020-ci ilin fevral ayınadək baş çavuş M.Hüseynov Türkiyə Respublikasında Jandarm Baş Komandanlığının Jandarm Komando Məktəbləri və Təlim Mərkəzi Komandanlığında "Gizir komando təməl kursu"nu uğurla bitirib.

...7 oktyabr 2020-ci il... Cəbrayıl istiqamətində gedən döyüş Məhəmmədin son döyüşü oldu. "Şahin" xüsusi təyinatlı dəstəsində atıcı, Vətən müharibəsi iştirakçısı baş çavuş Pərvin Abbaslı döyüş xatirələrini bölüşür: "2020-ci il sentyabrın 27-dən Kəlbəcər istiqamətində, Murovdağ silsiləsində ilk həmlədə bir neçə strateji əhəmiyyətli yüksəkliyi düşməndən azad etdik. Dəstəmiz ayrı-ayrı qruplara bölünmüşdü. Döyüş tapşırığına uyğun olaraq qrupumuz Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsinin xüsusi təyinatlıları ilə birgə hərbi əməliyyatlarda iştirak edirdi. Kapitan Ceyhun Əsgərovun rəhbərliyi altında qrupumuz "Canavar" postunu düşməndən aldı. Yüksəkliyi ələ keçirəndən sonra beş gün onun mühafizəsində dayandıq. Bundan sonra tutduğumuz mövqeləri digər qruplara təhvil verib, oktyabr ayının 2-dən Cəbrayıl istiqamətində döyüşlərə qatıldıq. İlk günlərdən bir neçə yüksəkliyi və yaşayış məntəqəsini düşməndən azad etməyə müvəffəq olduq. Lakin döyüş meydanında vuruşmağa cəsarəti çatmayan düşmən mövqelərimizi uzaq məsafədən aramsız artilleriya atəşinə tuturdu. Oktyabrın 7-də rayondakı "Dostluq bulağı" deyilən ərazidəki döyüşlər zamanı düşmənin atdığı minaatan mərmisi baş çavuş M.Hüseynovun və bizim qrupla birgə vuruşan Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsinin cəsur xüsusi təyinatlıları: kapitan Musibov Veysəl Yadulla oğlunun, baş leytenant Bədəlov Valeh Vahid oğlunun həyatına son qoydu. Müdafiə Nazirliyinin xüsusi təyinatlısı, kapitan Vasif Dilavərzadə və dəstəmizin hərbi qulluqçusu çavuş Surət Babayev isə ağır yaralandı".

Baş çavuş M.Hüseynov 2020-ci il oktyabrın 20-də Beyləqan rayonunun Bahar qəsəbə qəbiristanlığında dəfn olunub. Hüseyn adlı oğlu bizlərə yadigar qalıb.

Azərbaycan Respublikası Prezidentinin 15, 22 və 29 dekabr 2020-ci il tarixli müvafiq sərəncamları ilə baş çavuş Hüseynov Məhəmməd Alik oğlu (ölümündən sonra) "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə" və "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif edilib.

*mayor Anar Əhmədov*

# ADLARI DA, XATİRƏLƏRİ DƏ YAŞAYIR






Kamran Fərəcov

Vətən müharibəsində şəhidlik zirvəsinə ucalmış DİN Daxili Qoşunlarının hərbi qulluqçusu, gizir Cahid Tağızadənin doğum günü qeyd olunub.

**Bərdə Rayon Polis Şöbəsinin əməkdaşları,** şəhidin ailə üzvləri və ictimaiyyət nümayəndələri C.Tağızadənin məzarı önünə gül-çiçək dəstələri qoyub, əziz xatirəsini yad ediblər.

Çıxış edənlər, döyüş yoldaşları şəhidimizin keçdiyi döyüş yolundan danışıb, bizə qələbə bəxş edənlərin adlarının xalqımızın yaddaşında əbədi yaşayacağını vurğulayıblar.

Qeyd edək ki, gizir Cahid Tağızadə ölkə başçısının müvafiq sərəncamları ilə ölümündən sonra "Vətən uğrunda" və "Kəlbəcərin azad edilməsinə görə" medalları ilə təltif edilib.

**Şirvan Şəhər Polis Şöbəsinin əməkdaşları** da fevralın 14-də Daxili Qoşunlarının hərbi qulluqçusu, baş əsgər, şəhid Kamran Fərəcovun doğum günü ilə əlaqədar onun ailəsinə baş çəkib, qayğıları ilə maraqlanıblar.

Kamran İlqar oğlu Fərəcov 14 fevral 1996-cı ildə Şirvan şəhərində anadan olub. Müddətli həqiqi hərbi xidmətini başa vurduqdan sonra DİN-in Daxili Qoşunlarında xidmətini davam etdirib. 2020-ci ilin sentyabrın 27-də Silahlı Qüvvələrimiz əks-hücum əməliyyatına başlayanda o da Vətən müharibəsinə yollanıb. Sərrast atıcı olan K.Fərəcov snayper tüfəngi ilə düşmənin xeyli canlı qüvvəsini məhv edib. Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı, Xocavənd və Şuşa uğrunda gedən həlledici döyüşlərdə iştirak edib, Çanaqçı kəndi istiqamətində şəhid olub.

Hərbi qulluqçumuz ölümündən sonra "Vətən uğrunda" və "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif edilib.

*Aslan Qiyaslı,*
*Nizam Həmidov*

*Əvvəli 2-ci səhifədə.*

# DƏLƏDUZLAR İFŞA OLUNUB




Belə ki, Bakı şəhər sakini Tural Quliyev özünü Dövlət Sosial Müdafiə Fondunun sürücüsü olaraq təqdim edib. Etibarını qazandığı şəxsləri müxtəlif dövlət qurumlarında sürücü vəzifəsinə düzəldəcəyini deyərək hərəsindən ayrı-ayrılıqda 3 min manat olmaqla, ümumilikdə 9 min manat alıb. Aldadıldıqlarını bilən paytaxt sakinləri məsələnin qanuni yolla həll olunması üçün polisə müraciət ediblər.

Törətdiyi əməldən peşman olan Tural vətəndaşlara vurduğu maddi ziyanı da ödəməli olub.

"Polis"in suallarını cavablandıran **RPİ İstintaq Şöbəsinin rəisi, polis polkovnik-leytenantı Aqil Ələsgərovun** sözlərinə görə, təqsirləndirilən şəxslərlə profilaktiki söhbətlər aparılıb, barələrində qanunvericiliyin tələbləri əsasında tədbirlər görülüb, vətəndaşlara dəymiş maddi ziyanın ödədirilməsi təmin edilib.

***Yeri gəlmişkən, Suraxanı RPİ İstintaq Şöbəsi tərəfindən 2021-ci ildə mülkiyyət əleyhinə olan cinayətlər üzrə vətəndaşlara dəyən 810 min 880 manat maddi ziyanın 788 min 178 manatı, yəni 97,2 faizi ödətdirilib. Bu da 2020-ci illə müqayisədə 17,2 faiz çoxdur.***

*Teymur Əlizadə,*
*polis mayoru*

# MAARİFLƏNMƏK DƏ MÜBARİZƏDİR

## Gəncləri zərərli vərdişlərdən qorumaq hər birimizin borcudur





Paytaxt və bölgələrdə polis əməkdaşları gəncləri zərərli vərdişlərdən, xüsusilə narkomaniyadan qorumaq məqsədilə maarifləndirmə tədbirlərini davam etdirirlər.

**Səbail Rayon Polis İdarəsinin** təşkilatçılığı ilə 329 nömrəli tam orta məktəbdə "Ölümə gedən yol narkotikdən keçir!" mövzusunda maarifləndirici tədbir keçirilib.

Tədbirdə **RPİ-nin şəxsi heyətlə iş üzrə rəis köməkçisi, polis polkovniki Mərdan Məmmədov** çıxış edərək narkotik vasitələrin insanın həyat və sağlamlığı üçün yaratdığı təhlükələrdən bəhs edib. O, həmçinin cinayətlərin əksəriyyətinin narkomanlar tərəfindən törədilməsinə diqqət çəkib. Bildirib ki, bu gün ölkəmizdə hər bir gəncin özünü ifadə etməsi, faydalı vətəndaş kimi yetişməsi üçün dövlət tərəfindən hər cür şərait yaradılıb.

**Şabran Rayon Polis Şöbəsinin** təşkilatçılığı ilə rayonun Ağalıq kənd tam orta məktəbində keçirilən "Gəncliyimizi narkomaniyadan qoruyaq!" maarifləndirmə tədbirində çıxış edən **RPŞ-nin rəisi, polis polkovniki Məhəmməd İbrahimov** "Ağ ölüm"ün ailə və cəmiyyət üçün yaratdığı problemlərdən danışıb. Qeyd edilib ki, narkomaniyanın yayılmasının qarşısının alınması məqsədi ilə cəmiyyətin hər bir üzvü hüquq mühafizə orqanları ilə birgə mübarizə aparmalıdır.

**Tovuz rayon Düz Qırıqlı kənd tam orta məktəbində** də anoloji maarifləndirmə tədbiri keçirilib. Görüşdə çıxış edən **RPŞ-nin rəisi, polis polkovniki Habil Əmraslanov** ölkəmizdə, o cümlədən yerlərdə narkotiklərin qanunsuz dövriyyəsi ilə məşğul olan şəxslərin aşkar edilməsi istiqamətində aparılan genişmiqyaslı və qətiyyətli mübarizə tədbirlərinin nəticələri barədə məlumat verib.

Tədbirlərdə narkotiklərin törətdiyi fəsadlarla bağlı videoçarxlar nümayiş etdirilib, iştirakçıları maraqlandıran suallar cavablandırılıb.

Qeyd edək ki, narkomaniya ilə mübarizə çərçivəsində anoloji tədbirlər şəhər-rayon polis şöbələrinin təşkilatçılığı ilə **Biləsuvar, Oğuz və Göygöl** rayonlarındakı məktəblərdə də keçirilib.

# MƏKTƏBİ, MƏKTƏBLİLƏRİ QORUYAQ...

Ötən günlərdə sosial şəbəkələrdə bir neçə məktəbdə şagirdlərin qeyri-etik hərəkətlərə yol verməsini əks etdirən görüntülərin yayılması ciddi narahatlıq doğurdu. Çünki məktəb həm də təlim-tərbiyə ocağı olduğuna görə orada baş verən istənilən xoşagəlməz hadisə dərhal ictimai reaksiyaya səbəb olur. Ancaq unutmaq olmaz ki, bu cür halların yaşanmasında ailələrin də mənəvi məsuliyyəti az deyil...

Yeniyetmələrin cəmiyyətə hazırlanmasında üçüncü tərəf olaraq iştirak edən polisə gəlincə, ədalət naminə qeyd etməliyik ki, həmkarlarımız bu istiqamətdə üzərlərinə düşən vəzifələri uğurla icra edirlər. Hazırda orta təhsil müəssisələrində yeniyetmələrə qanun keşikçilərindən çox genişmiqyaslı maarifləndirici-profilaktik tədbirlər keçirən yoxdur.

Nizam-intizam qaydalarını kobud şəkildə pozub öz hərəkətlərini sosial şəbəkə üzərindən yayan şagirdlərlə nə kimi izahedici iş aparıldığı barədə sualımızı **BŞBPİ-nin İctimai Təhlükəsizlik İdarəsinin Yetkinlik Yaşına Çatmayanlarla Profilaktik İşin Təşkili Bölməsinin rəisi, polis polkovniki İbrahim İsmayılov** cavablandırıb. O, qeyd edib ki, həm Baş İdarə, həm də paytaxtdakı ərazi polis orqanlarının əməkdaşları tərəfindən zərərli vərdişlər və narkomaniya əleyhinə orta məktəblərdə keçirilən maarifləndirici tədbirlərin bir hissəsi məhz şagirdlərin intizam qaydalarına əməl etmələrinin, təhsilə maraq göstərmələrinin əhəmiyyətinin izah edilməsinə həsr olunur. Bugünlərdə Xətai rayonu 56, 165 nömrəli orta məktəblərdə, həmçinin Dəmiryolu və Metropoliten üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzində baş tutan maarifləndirici görüşlərdə şagirdlərin internetdə yayılmış görüntülərinə də toxunulub, tövsiyələr verilib.

# AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİ

## 2022/2023-cü tədris ili üçün DİN-in Polis Akademiyasında “hüquqşünaslıq” ixtisası üzrə əyani təhsilə kursantların qəbuluna dair

## ELAN

Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi xüsusi təyinatlı təhsil müəssisəsi olan Polis Akademiyasına “hüquqşünaslıq” ixtisası üzrə əyani təhsil üzrə 200 kursantın qəbulu üçün müsabiqə elan edir.

Müsabiqədə - Azərbaycan dilini sərbəst bilən, boyu azı 165 sm, çağırışçı kimi həqiqi hərbi xidmətə yararlı olan, buraxılış siniflərində oxuyan və ya tam orta təhsilli, 16 yaşdan 18 yaşadək Azərbaycan Respublikasının kişi cinsli vətəndaşları iştirak edə bilər.

İkili vətəndaşlığı, 2022-ci ilin yanvar, aprel və iyul tarixli çağırışlarında həqiqi hərbi xidmətə getməli olan çağırışçılar, cinayət törətdiyinə görə əvvəllər məhkum olunmuş, eləcə də “Azərbaycan Respublikası daxili işlər orqanlarında xidmət keçmə haqqında” Əsasnamə ilə müəyyən olunmuş digər şərtlərə uyğun gəlməyən vətəndaşlar müsabiqəyə buraxılmır.

Sənədlərin qəbulu 2022-ci il yanvar ayının 24-dən mart ayının 5-dək bazar günləri istisna olmaqla hər gün saat 10:00-dan 17:00-dək namizədin təhsil aldığı təhsil müəssisəsinin yerləşdiyi inzibati ərazi üzrə polis idarə və ya şöbələrində həyata keçiriləcək. Namizədlər aşağıdakı sənədləri şəxsən təqdim etməlidirlər:

*– şəxsiyyət vəsiqəsi və doğum haqqında şəhadətnamə (əsli və surəti);*

*– təhsil müəssisəsinin buraxılış sinfində oxuması haqqında DİN-ə təqdim olunması üçün arayış və ya tam orta təhsil haqqında sənəd;*

*– yaşayış yeri üzrə tibb müəssisəsindən DİN-ə təqdim olunması üçün sağlamlıq haqqında arayış;*

*– ilkin hərbi qeydiyyata alınma haqqında vəsiqə (əsli və surəti);*

*– oxuduğu təhsil müəssisəsi tərəfindən DİN-ə təqdim olunması üçün verilmiş xasiyyətnamə;*

*– 9x12 sm ölçüdə 2 ədəd, 4x6 sm ölçüdə 4 ədəd fotoşəkil (papaqsız, rəngli, donuq kağızda).*

Seçmə komissiyasının vaxtı barədə və Polis Akademiyası haqqında ətraflı məlumatlar Daxili İşlər Nazirliyinin www.mia.gov.az və Akademiyanın www.pa.edu.az internet saytlarında yerləşdiriləcək.

Əlavə məlumat almaq üçün əlaqə telefonları: **(012) 454-12-78, (012) 590-98-16.**

## 2022/2023-cü tədris ili üçün DİN-in Polis Akademiyasına ali təhsilin bakalavriat səviyyəsinə qiyabi təhsil üzrə qəbul

DİN-in Polis Akademiyasında qiyabi təhsilə qəbulla bağlı müsabiqədə - sıravi və kiçik, orta və böyük rəis heyəti vəzifələrində xidmət edən, tam orta, yüksək texniki peşə, orta ixtisas və ya ali təhsili başa vurmaq haqqında müvafiq dövlət nümunəli sənəd almış polis əməkdaşları yanvar - aprel aylarında əsaslandırılmış raportla Azərbaycan Respublikası daxili işlər nazirinə müraciət etməklə iştirak edə bilərlər.

Əməkdaşlar Polis Akademiyasında keçirilən daxili işlər orqanları əməkdaşları üçün nəzərdə tutulmuş fiziki hazırlıq üzrə normativləri yerinə yetirdikdən sonra Akademiyaya qəbul üzrə müsabiqədə iştiraka buraxılırlar.

Akademiyaya qəbul üzrə müsabiqə informasiya-kommunikasiya texnologiyaları vasitəsi ilə Polis Akademiyasında test üsulu ilə keçirilən qəbul imtahanından ibarətdir.

Daha ətraflı məlumatı DİN-in Polis Akademiyasının - **(012) 454-12-78 və ya Baş Kadrlar İdarəsinin - (012) 590-99-82, 19-82 (daxili) nömrəli telefonları vasitəsilə ala bilərsiniz.**

## 2022/2023-cü tədris ili üçün DİN-in Polis Akademiyasına ali təhsilin magistratura səviyyəsinə əyani təhsil üzrə qəbul

1.Azərbaycan Respublikası DİN-in Polis Akademiyası dövlət hesabına 2 illik əyani təhsil üçün hüquqşünaslıq ixtisasının “Cinayət hüququ, cinayət prosesi, kriminalistika və məhkəmə ekspertizası” ixtisaslaşması üzrə magistraturaya qəbul elan edir.

2.Akademiyanın magistraturasına qəbul olunmaq istəyən əməkdaş sənədlərin qəbulu üçün 2022-ci ilin fevral ayının 7-nə kimi əsaslandırılmış raportla Azərbaycan Respublikasının daxili işlər nazirinə müraciət edir.

3.Daxili işlər orqanları əməkdaşlarının Akademiyaya qəbulu müsabiqə yolu ilə həyata keçirilir.

4.Daxili işlər orqanları əməkdaşlarının Akademiyanın magistraturasına qəbulu üzrə müsabiqə Polis Akademiyasında informasiya-kommunikasiya texnologiyaları vasitəsi ilə test üsulu ilə keçirilən qəbul imtahanından ibarətdir.

5.İmtahanda bakalavrlara ümumi intellekt səviyyəsinin yoxlanılması üçün 50, informatika üzrə 25 və xarici dil üzrə 25 test tapşırığı təqdim olunacaq.

6.Daha ətraflı məlumatı DİN-in Baş Kadrlar İdarəsinin - **(012) 590-99-47, 19-47 (daxili)**, Polis Akademiyasının - **(012) 454-12-78 və ya 454-13-85** nömrəli telefonları vasitəsi ilə ala bilərsiniz.



**İbrahim Ağa Vəkilov (1853-1934)** topoqrafiya üzrə ilk azərbaycanlı mütəxəssis olub. O, Qafqazda hərbi topoqrafiya üzrə general-mayor rütbəsinə layiq görülmüş yeganə şəxsdir. Baş Qərargahda hərbi topoqrafiya şöbəsinin rəisi, ilk hərbi bayrağımızın tərtibçisi, 1920-ci ildə Azərbaycanın ilk coğrafi xəritəsinin müəllifi və respublikamızda topoqrafiya məktəbinin yaradıcısıdır.

Xidmətləri müqəddəs Anna ordeninin üçüncü dərəcəsilə (1886), İranın "Şire-Xorşid" ordenilə (1888), Müqəddəs Stanislav ordeninin ikinci dərəcəsilə (1894), Müqəddəs Anna ordeninin ikinci dərəcəsilə (1897), Müqəddəs Vladimir ordenin dördüncü dərəcəsilə (1903) qiymətləndirilib.

## TARİXİMİZİ ÖYRƏNƏK

# STATİSTİKA

## Qanunsuz silah-sursat götürülüb

Daxili işlər orqanları tərəfindən qanunsuz saxlanılan silah-sursatın aşkar edilərək götürülməsi məqsədilə əməliyyat-axtarış tədbirləri davam etdirilir.

Əldə edilən məlumatlar əsasında polis əməkdaşlarının keçirdikləri əməliyyat tədbirləri nəticəsində fevralın 9-dan 15-dək respublikanın ayrı-ayrı rayonlarında vətəndaşlardan qanunsuz saxladıqları müxtəlif markalı ümumilikdə 23 ədəd ov tüfəngi götürülüb.

Aparılan profilaktiki tədbirlər nəticəsində qanunsuz saxlanılan 7 silah könüllü olaraq polisə təhvil verilib.

Faktlar üzrə polis şöbələrində müvafiq araşdırmalar aparılır.

## Toylarda yoxlamalar keçirilib

9-15 fevral tarixlərində Daxili İşlər Nazirliyinin, Qida Təhlükəsizliyi Agentliyinin və İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin nümayəndələri Bakı şəhərində və respublika ərazisində 1356 toy şənliyinin monitorinqini həyata keçirib.

Monitorinqlər 1336 şadlıq sarayında, 20 şəxsi həyətyanı sahədə keçirilən şənlikləri əhatə edib.

Monitorinqlər nəticəsində toy şənliklərinin keçirilməsində xüsusi karantin rejimi qaydalarını pozduqlarına görə:

- 21 nəfər İnzibati Xətalar Məcəlləsinin 211-ci (Epidemiya əleyhinə rejimin, sanitariya-gigiyena və karantin rejimlərinin pozulması) maddəsinə əsasən cərimə olunub;
- 1 nəfər İnzibati Xətalar Məcəlləsinin 211-ci (Epidemiya əleyhinə rejimin, sanitariya-gigiyena və karantin rejimlərinin pozulması) maddəsi ilə inzibati qaydada həbs edilib;
- 1 nəfər barəsində toplanmış material baxılması üçün məhkəməyə göndərilib;
- 389 nəfər “COVID-19” pasportu olmadığına görə şənliyə buraxılmayıb.

## Karantin rejimini pozanlar

Karantin rejimi tələblərinin təmin edilməsi, koronavirus infeksiyasının ölkə ərazisində yayılmasının və törədə biləcəyi ağır fəsadların qarşısının alınması məqsədilə daxili işlər orqanlarının əməkdaşları paytaxt ərazisində, eləcə də bölgələrdə nəzarət–profilaktik tədbirləri davam etdirirlər.

Fevral ayının 9-dan 15-dək olan müddətdə polis əməkdaşları tərəfindən respublika ərazisində 112 nəfər aktiv koronavirus xəstəsi ictimai yerlərdə aşkar edilərək saxlanılıb. İzahedici söhbətlər aparıldıqdan sonra tibbi prosedurlar gözlənilməklə onlar yaşadıqları ünvanlara qaytarılıb və bu barədə müvafiq səhiyyə qurumları məlumatlandırılıb.

Ev şəraitində müalicə təyin edilməsinə baxmayaraq, yaşayış yerini tərk edən 6 nəfər barəsində Cinayət Məcəlləsinin 139-1-ci (Epidemiya əleyhinə və karantin rejimlərinin pozulması) maddəsi ilə cinayət işi başlanılıb.

## Kriminal icmal

- Fevral ayının 9-dan 15-dək olan müddət ərzində respublikanın daxili işlər orqanları tərəfindən 417 cinayətin üstü “isti izlər”lə açılmışdır.
- Əvvəlki dövrlərdən bağlı qalmış 91 cinayətin açılması təmin olunmuşdur.
- Axtarışda olduğuna görə ümumilikdə 341, o cümlədən borclu şəxs qismində axtarışda olan 217 nəfər saxlanılaraq aidiyyəti üzrə təhvil verilmişdir.
- Avtomobil yollarında 14 yol-nəqliyyat hadisəsi baş vermiş, nəticədə 19 nəfər ölmüş, 13 nəfər xəsarət almışdır.
- Daxili işlər orqanları əməkdaşlarının həyata keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində narkotiklərlə əlaqəli 214 fakt müəyyən edilmişdir.

*Natiq Cavadov*




## Baş ağrısının SƏBƏBLƏRİ

Ekspertlərin fikrincə, xroniki baş ağrıları qan-damar problemlərinin və beyində insult da daxil olmaqla, bir çox dəyişikliklərin əlamətidir. Yaxud xərçəng, hipertoniya, hətta meningitin göstəricisi ola bilər.

Baş ağrısına pis hava şəraiti də təsir edir. İngiltərənin Milli Səhiyyə Xidmətinə görə, dörd belə fenomen var: toz dumanı, yüksək rütubət, artan temperatur və fırtına. Havadakı dəyişikliklər beyində kimyəvi və elektrik dəyişikliklərinə səbəb ola bilər.

Baş ağrılarının səbəblərindən biri də infeksiyadır. Adi soyuqdəymə nəticəsində dişlər və burunətrafı ciblərdə iltihabi proses baş verə bilər ki, bu da əsas xəstəliklə yanaşı gedən başağrıları verə bilər.

Rusiyalı angionevroloq, tibb elmləri doktoru Yevgeni Şirokov baş ağrısının qeyri-adi səbəblərindən danışıb. Onun sözlərinə görə, ağrılar həmişə hansısa xəstəliklə əlaqəli olmur. Bəzi dərmanların həddindən artıq istifadəsi, həyat tərzində dəyişikliklər və mik-



rosirkulyasiyanın pozulması baş ağrısına yol açır.

O, oturaq həyat tərzini baş ağrısı üçün risk faktoru hesab edir: “Sinir uclarında meydana gələn qıcıqlanma əzələ spazmına və venoz axının pozulmasına səbəb olur. Bu da baş ağrısının meydana gəlməsinə şərait yaradır”.

Baş ağrısının mümkün başqa səbəbi havasız otaqdır. Bu zaman məkandakı oksigen çatışmazlığı, karbon dioksidin çox olması və yüksək temperatur damar spazmlarına və kəllədaxili təzyiqin artmasına səbəb olur.

Y.Şirokov onu da qeyd edib ki, alkoqol və ya qəhvə, paxla, qoz-fındıq, avokado, banan, pendir, şokolad, sitrus meyvələri, siyənək, süd məhsulları və soğan kimi qidaların həddindən artıq istifadəsi də baş ağrıları ilə nəticələnir. Hormonal dəyişikliklər, uzun müddət istifadə etdikdən sonra kofeindən imtina və ya yuxusuzluq, xoşagəlməz hisslər də baş ağrıları yaradır.

Baş ağrılarından xilas olmaq üçün gündə ən azı yarım saat gəzinti, isti və ya sərin duş qəbul etmək, saçları daramaq və baş masajı etmək lazımdır.

*Natiq Abdullayev, polis mayoru*

POLİS qəzetinin Kompüter Mərkəzində yığılıb səhifələnmiş və DİN-in Mətbəəsində çap edilmişdir.
Qəzet həftədə bir dəfə çıxır.
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır.
Qəzetdə gedən materiallardan istifadə edərkən redaksiyadan razılıq alınmalı və "Polis"ə istinad olunmalıdır.
REDAKTOR: HAFİZ TƏMİROV
Qeydiyyat № 4326. İndeks: 66993
Sayı 7975
Ünvanımız: Az 1005: Bakı şəh. "Azərbaycan" prospekti 7
Məlumat üçün telefonlar: 590-96-30; 590-93-92; 590-99-30
Çapa imzalanmışdır 15:30
Qiyməti 40 qəpik